ISSN 2663 - 4619 / Print

DOI: 10.36719/AEM/2007-2019/48/55-58
**Solmaz Azay qızı Sadıqova**
Bakı Dövlət Universiteti

# İRƏVAN XANLIĞINA DAİR İLKİN MƏNBƏLƏRİN SAHƏ MÜTƏXƏSSİSLƏRİNİN İNFORMASİYA TƏMİNATINDA YERİ

***Açar sözlər:*** *İrəvan xanlığı, ilkin informasiya mənbələri, tələbatçılar, informasiya təminatı, sahə mütəxəssisləri*
***Key words:*** *Iravan khanate, primary sources of information, consumers, information provision, field specialists*
***Ключевые слова****: Ireванское ханство, первоисточники информации, потребители, информационное обеспечения, специалисты отрасли*

Müasir cəmiyyətdə maddi, xammal, enerji, əmək və maliyyə resursları ilə yanaşı, informasiya resursları da mövcuddur. İnformasiya resurslarından başqa, istənilən resurs işləndikcə yox olur. Məsələn, yanacaq yanıb qurtarır, maliyyə vəsaiti xərclənir və s. İnformasiya resursu isə "bitib tükənmir", ondan çoxlu sayda istifadə etmək mümkündür (1). Belə informasiya resurslarından biri də İrəvan xanlığına həsr olunmuş ilkin informasiya mənbələridir. Ümumiyyətlə, informasiya resurslarının iki növü var. İlkin informasiya resursları və ikinci dərəcəli informasiya resursları. İnformasiya resurslarına dair bu sətirlərin müəllifinin bir sıra elmi əsərləri çap olunmuşdur. Onlardan bəzilərini qeyd etmək olar (1; 2; 3).

Azərbaycanın tərkib hissəsi olan İrəvan bölgəsinin tarixinə aid çap olunmuş ilkin mənbələr mühüm əhəmiyyət kəsb edir. Tədqiqatlar göstərir ki, Azərbaycan tarixinin sistemli şəkildə tədqiq edilməsinə ilk dəfə cəhd göstərən A.Bakıxanov (1794-1847) olmuşdur. O, XIX yüzilliyin əvvəllərində baş vermiş siyasi hadisələrin və hər iki Rusiya-Qacar müharibələrinin canlı şahidi və iştirakçısı olduğu üçün onun əsəri Azərbaycan tarixşünaslığında haqlı olaraq ilkin qaynaq kimi dəyərləndirilir. Belə ki, "Gülüstani-İrəm" əsəri Azərbaycan və Dağıstan tarixinin qədim dövrlərindən 1813-cü ilədək, yəni Gülüstan müqaviləsinin bağlandığı zamanadək olan bir dövrünü əhatə edir. Tarixçi-alim Elçin Qarayevin qeyd etdiyi kimi, "Azərbaycanın bu əzəli torpağının tarixi ilə yad tarixçilər məşğul olduğundan onun tarixi birtərəfli öyrənilmiş, saxtakarlıqlara məruz qalmış, problemin ayrı-ayrı məsələlərinə ümumiyyətlə toxunulmamışdı"(4).

Tədqiqatlar göstərir ki, müstəqillik dövründə İrəvan xanlığının bilavasitə tarixinə həsr edilmiş ilk cəhd kimi M.İsmayılovun F.Əliyevlə yazdıqları "İrəvan xanlığı" məqaləsini hesab etmək olar (4, s.30). Məqalədə yaranmasından süqutuna qədər yığcam olaraq İrəvan xanlığının siyasi, iqtisadi tarixi, etnik tərkibi və s. məsələlər işıqlandırılmışdır. Azərbaycan xanlıqlar dövrünün görkəmli tədqiqatçılarından biri F.Əliyevin U.Həsənovla birlikdə yazdıqları "İrəvan xanlığı" monoqrafiyası isə sonralar İrəvan xanlığı tarixi haqqında yazılacaq əsərlər üçün bir örnəkdir. Əsərdə İrəvan xanlığının siyasi, ictimai-iqtisadi vəziyyəti, inzibati-ərazi bölgüsü, torpaq mülkiyyəti formaları, vergi və mükəlləfiyyətlər kimi məsələlər öz əksini tapmışdı.

"İrəvan xanlığı" adlı kitab 2007-ci ildə "Şərq-Qərb" mətbəəsində 144 səhifədən ibarət çap olunmuşdur (5). Qeyd etmək lazımdır ki, 1997-ci ildə nəşr olunmuş eyni adlı nəşr əsasında çap olunmuş kitabın redaktoru və ön sözün müəllifi tarix elmləri doktoru Kərim Şükürovdur. Kitabın annotasiyasında qeyd olunduğu kimi, tarixən qədim Azərbaycan torpaqlarını əhatə edən İrəvan xanlığı həm siyasi, həm də iqtisadi baxımdan az öyrənilmiş xanlıqlardan biridir. Kitabda müstəqil dövlət qurumuna çevrilməzdən əvvəl mürəkkəb və uzun tarixi yol keçmiş İrəvan xanlığının yaranması, ictimai-siyasi vəziyyəti siyasi-tarixi mənbələr və arxiv sənədləri əsasında təqdim edilir. Bu kitabda 1747-1828-ci illəri əhatə edən dövrdə ermənilərin Azərbaycan ərazisində Rusiya imperiyasının tərkibində erməni dövləti yaratmaq üçün müxtəlif məktublarla dönə-dönə Rusiya dövlətinə müraciət etmələri barədə də maraqlı məlumatlar vardır.

İrəvan xanlığının tarixinə həsr olunmuş ilkin mənbələrdən biri də Elçin Teymur oğlu Qarayevin "Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu - XIX yüzilliyin ortalarında" adlı 544 səhifədən ibarət kitabıdır. 2016-cı ildə "Mütərcim" nəşriyyatında çapdan çıxmış monoqrafiya XVII yüzilliyin sonu -XIX yüzilliyin ortalarında Azərbaycanın İrəvan bölgəsinin tarixinə həsr olunmuşdur (4). Monoqrafiya AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çapa məsləhət görülmüşdür. "Azərbaycanın İrəvan bölgəsinin tarixindən (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında)" adlı monoqrafiya Azərbaycanın tərkib hissəsi olan İrəvan bölgəsinin tarixinin araşdırılmasına həsr edilmişdir. İrəvan bölgəsinin zəngin, çox mürəkkəb və ziddiyyətlərlə dolu bu dövr tarixinin

araşdırılması son dərəcə əhəmiyyətli və aktual məsələlərdən biridir. İrəvan bölgəsinin tarixinin ayrıca mövzu kimi öyrənilməsi və tədqiq edilməsi zəruriliyi bu günki Azərbaycan dövlətinin düşdüyü hərbi-siyasi vəziyyətlə də əlaqədar olaraq çox əhəmiyyətlidir.

Kitabda araşdırılan mənbələr və arxiv sənədləri əsasında İrəvan bölgəsinin siyasi-iqtisadi tarixi, tarixi coğrafiyası, əhali və mədəniyyəti haqqında ətraflı məlumat verilmişdir. Burada bölgənin ərazisi və siyasi sərhədləri müəyyənləşdirilmiş, əhalinin etnik, dini, say və sosial tərkibi işıqlandırılmışdır. Müəllif 33 səhifədən ibarət Giriş hissəsində indiyədək İrəvan bölgəsinin tarixi ilə bağlı olan əsərləri bir neçə qrupa bölmüşdür. Əsərin sonunda 505 adda ədəbiyyatın biblioqrafik təsvirinin verilməsi ilkin resurs kimi onun informasiya potensialını artırmış olur. 9 fəsil, 8 bölmə və 25 yarımbölmədən ibarət olan ilkin resursun sonunda "Nəticə", "İxtisarların siyahısı", "İstifadə olunmuş mənbə və ədəbiyyat siyahısı", "İstifadə olunmuş pul, çəki, ölçü və uzunluq vahidləri" və "Cədvəllər və xəritələr"in verilməsi hər bir informasiya tələbatçısı üçün çox faydalıdır. Birinci fəsil "İrəvan bölgəsində siyasi vəziyyət (XVII yüzilliyin sonu – XVIII yüzilliyin ortalarında) adlanır. "XVIII yüzilliyin 60-90-cı illərində İrəvan bölgəsində siyasi vəziyyət" adlanan ikinci fəsil 5 yarımbölməyə ayrılmışdır. Bunlar aşağıdakılardır:

- İrəvan xanlığı Hüseynəli xanın (1759-1783) hakimiyyəti dövründə;
- İrəvan xanlığı Qulaməli xanın hakimiyyəti dövründə;
- XVIII yüzilliyin 80-ci illərin ikinci yarısında İrəvan xanlığında siyasi vəziyyət;
- İrəvan xanlığı Ağa Məhəmməd şah Qacarın yürüşləri dövründə;
- XVIII yüzilliyin axırlarında İrəvan xanlığının siyasi vəziyyəti və s.

Monoqrafiya tarixçi-alimlər, şərqşünaslar, müəllimlər, ali məktəb tələbələləri və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

İrəvan xanlığının tarixinə dair ilkin mənbələrin yaradılmasında Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Tarix İnstitutunun və "Azərbaycan Tarixçiləri" İctimai Birliyinin (ATİB) fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Belə ki, İrəvan xanlığının tarixinə dair 4 adda broşürün erməni və fars dillərinə tərcümə olunmuş nəşrlərinin təqdimat mərasimi keçirilmişdir.Təqdimat mərasimində qeyd olunmuşdur ki, "İrəvan xanlığı: Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi" və digər fundamental tədqiqatlar kimi bu əsərlər də Prezident İlham Əliyevin təşəbbüsü ilə yazılıb" (6). Bu kitabçalar Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyələşdirdiyi "İrəvan xanlığının tarixinə dair 4 adda broşürün nəşr olunması" layihəsi çərçivəsində ATİB tərəfindən nəşr olunub. Layihənin rəhbəri və nəşrlərin elmi redaktoru Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, texniki redaktor isə fəlsəfə doktoru Mehri Xanbabayevadır. Bu əsərlər Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə çap olunmuşdur.

"İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi Xan sarayı" və "İrəvan xanlığı: Erməni vandallarının yox etdiyi İrəvan məscidləri" adlı kitabçaların müəllifi tarixçi-alim Nazim Mustafa, "İrəvan xanlığı: İrəvan qalası – qəhrəmanlıq qalası" və "Çuxursəd hakimləri və İrəvan xanları" adlı kitabçaların müəllifi isə tarixçi-alim Güntəkin Nəcəflidir. Akademik Yaqub Mahmudov bildirib ki, yeni nəşrlər ermənilərə ciddi mesajdır: "Ermənilər nəinki Cənubi Qafqaza, ümumiyyətlə, Asiya qitəsinə köçüb gəlmə əhalidir. XVII əsrin 70-ci illərində Azərbaycanın İrəvan bölgəsinə, o cümlədən İrəvan şəhərinə səyahət etmiş türk səyyahı Evliya Çələbi "Səyahətnamə"sində və fransız səyyahı Jan Şarden "Parisdən İsfahana səyahət" əsərində bu torpaqların əhalisinin mütləq əksəriyyətinin Azərbaycan türkləri olduğunu bildiriblər"(6).

İrəvan bölgəsinin tarixinə dair bir sıra tədqiqatlar aparılır, dissertasiyalar yazılır. Belə tədqiqat əsərlərindən biri İbrahim Feyzulla oğlu Kazımbəylinin "Azərbaycanın İrəvan bölgəsi XIX əsr - XX əsrin əvvəllərində" adlanır (7).

Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işinin elmi məsləhətçisi akademik Y.M.Mahmudovdur.

XIX əsrin birinci yarısında Cənubi Qafqazda hərbi-siyasi vəziyyət. İrəvan xanlığının Rusiya imperiyası tərəfindən işğalı və onun idarəçiliyi adlanan birinci fəsil XIX əsrin əvvəllərində Cənubi Qafqazda hərbi-siyasi vəziyyət və İrəvan xanlığının Rusiya tərəfindən işğalı, Rusiya işğalından sonra İrəvan bölgəsinin idarəçiliyi və XIX əsrin 40-cı illərinin islahatları və İrəvan bölgəsi adlanan yarımfəsillərə ayrılmışdır. İkinci fəsil XIX əsrin II yarısı - XX əsrin əvvəllərində İrəvan bölgəsinin inzibati-siyasi vəziyyəti adlanır. Burada İrəvan quberniyasının yaradılması və onun idarə sistemi, İrəvan quberniyasının ərazisi və əhalisi, İrəvanın ermənilərə verilməsi və bölgədə erməni dövlətinin yaradılması prosesi. Üçüncü fəsil XIX - XX əsrin əvvəllərində İrəvan bölgəsinin sosial-iqtisadi və mədəni həyatına həsr olunmuşdur.

Ermənilərin İrəvan bölgəsinə köçürülməsinin əsas mərhələləri, dinamikası və coğrafi yerləşdirilməsi, XIX əsrin sonu - XX əsrin əvvəllərində Cənubi Qafqazdakı erməni-müsəlman konfliktinin İrəvan bölgəsində

gedişi, 1918-1920-ci illərdə İrəvan bölgəsində türk-müsəlman əhaliyə qarşı soyqırım və etnik təmizləmə siyasəti və s. məsələlər dördüncü fəsildə öz əksini tapmışdır.

İrəvan xanlığının tarixinə dair dövri mətbuatda dərc olunmuş elmi məqalələr də sahə mütəxəssislərinin, eləcə də hər bir azərbaycanlının marağına səbəb olur, onların informasiya təminatında mühüm rol oynayır. Belə elmi məqalələrdən Mahmud İsmayılovun "İrəvan xanlığı" (8), Tahirə Həsənzadənin "İrəvan xanlığı" (9), Səməndər Çaxmaqlının İrəvan xanlığı - Azərbaycan xanlıqlarından biri" (10), Elşən Mirişlinin "Tariximizin silinməz səhifəsi - İrəvan xanlığı" (11) dərc olunmuşdur.

Beləliklə, İrəvan xanlığının tarixinə həsr olunmuş mənbələri araşdırarkən məlum olur ki, əvvəlki illərə nisbətən son 10 ildə daha çox ilkin resurslar artmağa başlamışdır. Rəqəmlərin dili ilə desək, 2009-cu ilə qədər 21 adda mənbə çap olunmuşdursa, 2010-2019-cu illər arasında 227 adda ilkin mənbə işıq üzü görmüşdür ki, onlardan 57-si kitabdır (12).

Hazırda kitabxana-informasiya və biblioqrafik ehtiyatlarını dünya informasiya sisteminə inteqrasiyasına malik olmaq kimi ciddi problemlər durur. Bu problemlərin həlli ilk növbədə Azərbaycan tarixi, mədəniyyəti, elmi, təhsili, incəsənəti, maddi və mənəvi dəyərləri haqqında informasiyanı yaymağa, erməni qəsbkarları tərəfindən torpaqlarının 20 faizə qədərinin işğalına və bədnam düşmənlərinin dezinformasiyasına məruz qalmış Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasına imkan verəcəkdir (13, 280).

**Ədəbiyyat:**

1. Sadıqova S.A. Sosial-siyasi informasiya resursları: Dərs vəsaiti. Bakı: Mütərcim, 2016, 126 s.
2. Sadıqova S.A. İrəvan-Azərbaycan ədəbiyyatına həsr olunmuş informasiya resursu // "İrəvanın maddi və mənəvi irsi" mövzusunda gənc tədqiqatçıların elmi-praktiki konfransının materialları Bakı, 25 may 2016, Bakı: "Bizim Nəsil" GRİA İB, 2016, s.107-112.
3. Sadigova S.A. İnitial resources on socio-political information // European Journal of Humatities and Social Sciences, Vienna, 2018, № 6, p.60-62 (ingilis dilində)
4. Qarayev E.T. Azərbaycanın İrəvan bölgəsinin (XVII yüzilliyin sonu-XIX yüzilliyin ortalarında). Bakı: Mütərcim, 2016, 544 s.
5. Əliyev F., Həsənov U. İrəvan xanlığı. Bakı: "Şərq- Qərb", 2007, 144 s.
6. https://azertag.az/xeber/Irevan_xanliginin_tarixine_dair_4_adda_eser_ispan_ve_ereb_dillerinde_chapdan_chixib-1312933
7. Kazımbəyli İ.F. Azərbaycanın İrəvan bölgəsi XIX əsr-XX əsrin əvvəllərində 5503.02 – Vətən tarixi: Tarix üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş. Dissertasiya. Naxçıvan, 2018, 345 s.
8. İsmayılov M. İrəvan xanlığı //Azərbaycan. 1991, 30 mart;12-19 aprel.
9. Həsənzadə T. İrəvan xanlığı // Kredo, 2011, 18 iyun.
10. Çaxmaqlı S. İrəvan xanlığı – Azərbaycan xanlıqlarından biri // Türküstan, 2018, 13-19 mart.
11. Mirişli E. Tariximizin silinməz səhifəsi – İrəvan xanlığı // Türküstan, 2017, 11-17 aprel.
12. (http://ek.anl.az/search/query?theme=e-kataloq)
13. Sadıqova S.A. Azərbaycan milli biblioqrafiyası qlobal informasiya məkanında. Monoqrafiya. Bakı, ADPU nəşriyyatı, 2018, 305 s.

## The place of primary sources of information on the Iravan khanate in the field of information provision for the field specialists

**Summary**

Studying the history of different regions of Azerbaijan is very important in light of the many dark moments of our history. One of such regions is the Iravan region, an ancient and inseparable part of Azerbaijan. The history of this region has not been thoroughly studied in Azerbaijani historiography. However, since Azerbaijan regained its independence in the early 1990s, there were great opportunities for an objective study of our history. In this regard, our historians have recently started to write numerous scientific works on the history of the Iravan region. which is part of Azerbaijan. The article deals with published primary sources on the Iravan khanate. The role of these sources in the information support of specialists is emphasized.

 ISSN 2663 - 4619 / Print

**Место первоисточников информации об Иреванском ханстве в сфере информационного обеспечения специалистов отрасли**

**Резюме**

Изучение истории различных регионов Азербайджана очень важно с точки зрения их малоизученности. Одним из таких территорий является Иреванское ханство - древняя и неотделимая часть Азербайджана. История этого региона в азербайджанской историографии не до конца изучена. Однако, после восстановления независимости в начале 1990-х годов появились большие возможности для объективного изучения нашей истории. В связи с этим наши историки недавно начали писать многочисленные научные труды по истории Иреванского ханства. В статье рассматриваются опубликованные первоисточники об Иреванском ханстве, подчеркивается роль этих источников в информационном обеспечении специалистов.

**Rəyçi: dos. N.İ.İsmayılov**